Şəlalə Məmmədzaid qızı Bünyadzadə [41]

ƏVƏZLİYİN MƏTN YARATMADA ROLU

Giriş. Dilçilikdə əvəzliyin bir nitq hissəsi olaraq varlığı ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bəzi dilçi mütəxəssislər əvəzliyi "boş sözlər" kimi dəyərləndirmiş, bəziləri isə bu nitq hissəsinin var olmaması fikrini söyləmişlər. Əvəzliklər tarixən bəzən isimlərlə, bəzən sifətlərlə qarışdırılmış, bəzən də əvəzlik olmayan sözlər əvəzliklər kimi təqdim olunmuşdur. Hətta isimləri əvəz etdiyi üçün əvəzliklərin xeyli hissəsi "əvəzlik-isim" adı altında isimlər sırasında verilmiş, işarə əvəzlikləri isə "təyini sifət" adı ilə sifətin tərkibində göstərilmişdir. Lakin belə yanaşmalar, bizcə, həqiqəti əks etdirmir, ona görə ki başqa nitq hissələrində olduğu kimi əvzəliyin də özünəməxsus səciyyəvi xüsusiyyətləri mövcuddur. Onu da deyək ki, əvəzliyin tarixi çox qədimdir. Biz əvəzliklərlə hələ Orxon-Yenisey abidələrinin, "Kitabi-Dədə Qorqud" dastanlarının, M.Kaşğarinin "Divan"ının, M.Füzulinin, İ.Nəsiminin və s. mühüm abidələrin dilində də rastlaşırıq.

Əvəzliklərin dildə işlənmə imkanları çox genişdir. Onlar digər nitq hissərlərini əvəz edən sözlər kimi bilinsə də, onun cümlə strurkturlarının formalaşmasında və hətta mətnlərin formalaşmasında da xüsusi rola malikdir. Belə ki, əvəzliyin mətnin komponentlərinin zəncirvari əlaqələnməsindəki funksiyası mühüm əhəmiyyət kəsb edir. Demək ki, əvəzliklər həm mətn komponentləri, həm də müxtəlif tipli mətnlərin arasında əlaqələndirici vasitələrdən biridir. Onlara yalnız təkrardan qaçmaq üçün istifadə olunan vasitə kimi deyil, həm də müstəqil söz kimi baxmaq lazımdır. Əvəzliyin bu xüsusiyyəti haqqında Q.Kazımov yazır: "Onu qeyd etmək lazımdır ki, dil əvəzlikləri yalnız təkrardan qaçmaq vasitəsi kimi yaratmamışdır. Elə hallar var ki, əvəzlikləri atıb, yerinə onun əvəz etdiyi sözləri və birləşmələri qoymaq mümkün olmur və ya bu cür əməliyyat mətni eybəcərləşdirir. Deməli, əvəzliklər müstəqil əlaqələndirici vasitə kimi də fəaliyyət göstərir" (1, s. 458).

Əsas hissə. Artıq qeyd edildiyi kimi, dildə mətn yaratma prosesində əvəzliyin rolu böyükdür. Bu baxımdan əvəzliyin məna növlərinə uyğun olaraq mətn qurulmasında onların rolunu ayrılıqda təqdim etməy məqsədəmüvafiq hesab edirik. Belə ki, şəxs əvəzliklərinin mətnin qurulmasındakı roluna nəzər salaq:

Biz şəxs əvəzliyinin mətndəki mövqeyi: "- Belə ki, komsomolçu yoldaşlar, gərək işıq bu şəhərdən o kəndlərə yayılsın. Ayrı cür necə ola bilər? Bəs niyə biz, -komsomol katibi əlini salona doğru uzatdı, -kommunxoz dura-dura, öz qollarımızı çirməyib, soyuq çaya girib sal-sal buzların arasından keçmişik? Biz demişdik ki, qoy yaz selinin qıjıltısına qədər bu işıq dəhnəsi düzəlsin!" (7, s. 284). Burada *biz* əvəzliyi komsomol katibi ifadəsini əvəz etmiş, sonrakı hissədə təkrarlanan *biz* əvəzliyi isə mətnin komponentinin bağlanmasında əsas rol oynamışdır.

O əvəzliyi haqqında isə deyə bilərik ki, bu söz şəxs əvəzliklərinin içərisində tam müstəqil şəkildə formalaşmayıb, həm şəxs, həm də işarə əvəzliyi kimi çıxış edir. O əvəzliyi mətndə həm təkrardan qaçmaq, həm də xatırlatma mövqeyində çıxış edir: "Mehman yeyin addımla səhnəyə çıxdı və xitabət kürsüsünə gəldi. O, qanun-əsasidən başlayaraq sovet vətəndaşlarına verilən böyük hüquqdan danışdı. Mehman qədim quldarlıq, feodallıq, sonra kapitalizm cəmiyyətindəki insan hüquqsuzluğundan xeyli bəhs etdi, o, bu cinayətlərdəki dözülməz istismar formalarından, əməkçi insanların ağır güzəranından bəhs açdı" (7, s. 287). Verilən parçada *o* şəxs əvəzliyi Mehman sözünü əvəz etmiş və təkrarın qarşısını almaqla yanaşı, xatırlatma mövqeyində olmuşdur.

Onlar şəxs əvəzliyi mətn daxilində həm ümumilik bildirir, həm də digər əvəzliklərdə olduğu kimi təkrarın qarşısını alır.

Mətn komponentlərinin əlaqələnməsində əvəzliklər içərisində ən çox işlənən işarə əvəzlikləridir. Məs.: "...Nərgiz müəllimənin sifəti alışıb-yanırdı. O nə isə hiss edirdi və bundan qorxurdu. Əslinə baxsan, o çoxdan, elə İmranla birinci dəfə eyvanda görüşən andan qorxurdu. Nərgiz o vaxtdan öz hissləri ilə mübarizə aparırdı. İndi də narahat idi" (8, s. 145). Nümunədə görürük ki, müəllif "hiss" sözünü təkrar etməmək üçün "bundan" işarə əvəzliyindən, "İmranla birinci dəfə eyvanda görüşən andan" cümləsini də bir də təkrarlamamaq üçün "o vaxtdan" işarə əvəzliyindən istifadə etmişdir.

Bundan başqa, işarə əvəzliyi abzasların və sintaktik bütövlərin bağlanmasında da iştirak edir. Belə ki, *bu* əvəzliyi abzasın əvvəlində və mətnin sonunda işlənə bilir, əvvəldə təsvir olunmuş söhbətə işarə edir. Z.Şahbazova bu əvəzliyi haqqında belə yazır: "Bu işarə əvəzliyi III şəxsin təkinin xəbər şəkilçisini qəbul etdikdən sonra da sintaktik bütövün yaranmasında rol oynaya bilir. Mətnin əvvəlində işlənən "budur, odur, elədir, belədir" əvəzliyinin ümumi şəkildə ifadə olunmuş mənası mətnin sonrakı cümlələri vasitəsilə aydınlaşdırılır. Bu əvəzliklər mətnin əvvəlində xəbər vəzifəsində işlənir. Xəbər vəzifəsində işlənən işarə əvəzliyindən sonrakı mətndə məsələnin vəziyyətinin nə yerdə olduğu və ya hökmün nədən ibarət olduğu konkret olaraq sadalanır" (3, s. 217). Nümunə: "İş belədir ki, Ağca xanımın nə uşaq ilə əylənməyə, nə də bağçaya yola salmağa vaxtı vardı: geyinib-keçinəndə dünya gözünə görünməzdi" (6, s. 237). Burada "belədir" əvəzliyindən sonra vəziyyətin necə olması izah olunmuşdur.

Z.Şahbazova xüsusi olaraq vurğulayır ki, işarə əvəzlikləri arasında müəyyən fərqlər var. Məsələn, *o, bu* işarə əvəzlikləri əvəz etdikləri obyekti xatırladır, amma elə, belə əvəzlikləri isə əvəz etdikləri obyektin bütün əlamət və keyfiyyətini özündə cəmləşdirə bilir. O qeyd edir ki, elə, belə əvəzlikləri anaforik, epiforik və ya anaforik-epiforik formada işlənir. Belə ki, tədqiqatçı yazır: "....elə, belə" əvəzlikləri anaforik qaydada işarə edən zaman əlamət və keyfiyyətləri özündə cəmləşdirir. Epiforik işarədə işə mətnin əvvəlində işlənməklə hər hansı bir hadisə və ya obyekt haqqında əlavə məlumatın verilməsini mətnin növbəti hissəsindən tələb edir. Anafora-epiforik işarədə "elə, belə"

[41] Bakı Dövlət Universiteti, İngilis dili (təbiət fakültələri üzrə) kafedrasının baş müəllimi

əvəzlikləri hər iki funksiyanı eyni zamanda yerinə yetirir" (3, s. 218).

1. Anaforik qayda dedikdə əvəzliyin özündən əvvəl artıq adı çəkilmiş obyektə işarə etməsi nəzərdə tutulur: "Həmn gün axşama kimi külək əsirdi və külək bir saatdan bir dəyişirdi, gah xəzri ağappaq köpüklənmiş dalğaları qayalara çırpırdı, gah da gilavar əsirdi, amma axşamçağı birdən-birə külək dayandı və ağcaqanad yenə yamanca baş qaldırdı; Zuğulbanın dənizindən, qumundan, qayalarından olmazdı, amma ağcaqanadı da yaman ağcaqanad idi" (4, s. 6). Göründüyü kimi, həmin gün sözündən əvvəl bu haqda geniş məlumat verilmiş, amma həmin əvəzliyi ilə sadəcə o yada salınmışdır.

2. Epiforik qayda dedikdə mətnin əvvəlində işlənmiş əvəzliyin özündən sonra gələn elementlərə işarə etməsi nəzərdə tutulur: "Ömər koxa o günləri yada saldı. Özü gəmiyə oturub atın yalından yapışdığını və atını gəminin böyrü ilə qarşı sahilə çıxardığını xatırladı. Köksünü ötürdü. İllər Kürün suları kimi çoxdan axıb getmişdi, lap çoxdan" (8, s. 285). Burada isə *o* əvəzliyi gün sözü ilə birləşmiş və Ömər koxanın keçmiş xatirələrini yada salınmasına diqqət çəkmişdir.

3. Anaforo-epiforik qaydada. Z.Şahbazova bu barədə yazır: "Bəzi hallarda əvəzliyin mənası eyni zamanda özünün iştirak etdiyi cümlədən həm əvvəlki, həm də sonrakı cümlələrin məzmunu ilə açılır. Bu halda tərkibində əvəzlik iştirak edən həmin cümlə ancaq özündən əvvəlki və sonrakı cümlələrlə birlikdə başa düşülür və hər iki tərəfdəki cümlələrlə əlaqəyə girib, onları vahid sintaktik tamda birləşdirir. Özü də bu sintaktik tamın mərkəzi cümləsinə çevrilir. Bu üsulla yaranan mətndə əvəzliyin rolu anaforik epiforik şəkildə olur" (3, s. 220). Deməli, həmin və həmən işarə əvəzlikləri işləndiyi mətnə həm konkret və dəqiqləşdirici məna verir, həm də təkrarın qarşısını alır: "Yoldaşlardan biri mənə məşhur həkimin ünvanını verdi. O həkim, deyildiyinə görə, ürək xəstəliklərində ad qazanmışdı. Özü də professor idi. İstədim həmin professoru çağırım" (6, s. 54). Burada professor haqqında məlumat verilmişdir. Sonrakı cümlələrdə müəllif o məlumatları bir də təkrar etməmək üçün həmin əvəzliyindən yararlanmışdır.

Həmin, həmən əvəzlikləri bəzən müvafiq olaraq *o, bu* işarə əvəzliyi ilə paralel də işlənə bilir: "Mehman ilk məktəb illərini, həmin bu stolun başında oturub dərs hazırladığı çağları, körpəliyə məxsus şıltaqlığını xatırladı" (7, s. 238).

Bir sıra hallarda isə *həmin* və *həmən* əvəzlikləri mətnin sonunda işlənərək onu qapadır. Bu zaman işarə əvəzliyinin izahı əvvəldə verilir, işarə əvəzliyi mətni qapamaqla yanaşı, onu ümumiləşdirir: "Bəli, bu həmin gözəl qız səkkizincidə oxuyan ucaboy, ağbəniz, uzunsaç, qaragöz qızın özü idi. Bu həmin Zivər idi... İşığını saxlamış, mənası bəlkə bir az da dərinləşmiş qara gözlər həmin gözlər idi. Baxışı və xüsusən ani təbəssümü həmin idi" (6, s. 156). Bu parçada işlənən *həmin* əvəzliyi həm təkrarın qarşısını alır, həm də cümlələrin sonunda işlənərək onların qapanmasına şərait yaradır.

Əvəzliyin məna növlərindən biri kimi qeyri-müəyyən əvəzliklər də mətn yaratmada mühüm rola sahibdir. Dildə ən çox işlənən qeyri-müəyyən əvəzliklər bunlardır: *kimi, biri, hərə, hamı*. Bunların içərisində daha fəal olanı *kimi* əvəzliyidir. Məs.: "Məktəbin uzun dəhlizi oğlan-qızla dolmuşdu. Onlardan kimisi qol-qola gəzir, kimisi yığışıb söhbət edir, kimisi onillik məktəbi qurtarmaq vəsiqəsini öz yoldaşına göstərib öyünürdü" (7, s. 6). Yazıçı bu bədii mətn parçasında birinci cümlədə qeyd edilən oğlan və qızların etdiyi hərəkətləri ayrı-ayrılıqda təkrar etməmək üçün kimisi qeyri-müəyyənlik əvəzliyindən istifadə edərək ümumiləşdirmə aparmışdır.

Hamı qeyri-müəyyən əvəzliyi dildə daha çox ümumilik bildirir: "Qurban yavaş-yavaş kənd içində sayılmağa başlayırdı. İclaslarda onu tərifləyir, yaxşı briqadir olduğunu söyləyirdilər. O daha da həvəslənir, hamıdan əvvəl yer əkdirir, səpinə başlayır, pambıq yığdırırdı" (8, s. 44).

Əvəzliyin digər məna qruplarından biri də təyini əvəzliklərdir. Bu məna növünə aid olan hər bir sözün özünün mətnin komponentlərini bağlamaqda rolu var. *Hər* əvəzliyi sintaktik cəhətdən bütün mətni əlaqələndirir. Mətndə bu əvəzlik vasitəsilə konkretlik, dəqiqlik yaranmış olur. Mətnin əvvəlində işlənən, aktuallaşan *hər* əvəzliyi əksər hallarda "bütün" əvəzliyi ilə ümumiləşdirilir. Bütün əvəzliyi mətni ümumiləşdirib mətnin təkrarlanan, hər sözü ilə aktuallaşan üzvlərin ekvivalentinə çevrilir. Məsələn: *Hər adam, hər kəs, hər şey, hər gün, hər zaman, hər yer* və s. deyilir, sonrakı komponentlərdə isə bu üzvlər mətn vasitəsilə izah edilir. Nümunə:

Hər qulun cahanda bir pənahı var,
Hər əhli-halın bir qibləgahı var.
Hər kəsin bir eşqi, bir allahı var.
Bənim tanrım gözəllikdir, sevgidir (5, s. 9).

Öz təyini əvəzliyi digər əvəzliklərdən bəzi xüsusiyyətlərinə görə seçilir. O hər hansı bir sözdən əvvəl gəlir və həmin sözün mənsubiyyət şəkilçisi ilə işlənməsini tələb edir. Ancaq belə işlənmə forması söz birləşməsinin yaranması ilə nəticələnir. Özündən sonrakı sözlə yanaşma əlaqəsində olan öz əvəzliyi heç bir dəyişikliyə məruz qalmır. Əsas söz isə müxtəlif şəxslərə aid mənsubiyyət şəkilçisi qəbul edə bilir. Öz kitabım / kitabın / kitabı / kitabımız / kitabınız / kitabları və s.

Öz əvəzliyi yanında gəldiyi sözü konkretləşdirir. Təklikdə bu söz mənsubiyyət şəkilçisi qəbul edərək digər təyin əvəzliklərindən fərqli olaraq substantivləşir. Müxtəlif cümlə üzvü vəzifəsi daşıya bilir. Bəzi dilçilik ədəbiyyatlarında mənsubiyyət şəkilçisi qəbul etmiş *öz* sözünü qayıdış əvəzliyi kimi ayrıca məna növünə də daxil etmişlər (hazırda qayıdış əvəzliyin bir məna növü kimi mövcud deyil). Mənsubiyyət şəkilçisi qrammatik şəkilçidir, sözdüzəltmə xüsusiyyətinə malik deyildir. Bu barədə Y.Seyidov belə yazır: "Mənsubiyyət şəkilçisi sırf qrammatik şəkilçidir və nə yeni söz, nə də yeni növ düzəldə bilər" (2, s. 288).

Öz əvəzliyi mətndə subyektlə birlikdə işlənir, aid olduğu subyekti daha da konkretləşdirir: "Kosaoğlu öz hərəkətlərindən məmnun qalır, "belə etməsəm olmaz, - deyirdi, - yoxsa ağzıgöyçəyin biri məsələni öyrənər, gedib xəbər verər" (8, s. 49).

Mətn komponentlərinin bağlanmasında sual əvəzliklərinin də özünəməxsus yeri var. Leksik-sintaktik mənasının zənginliyi, müxtəlif və rəngarəng məna çaları ifadə etmələrinə görə sual əvəzlikləri söz birləşmələrində, cümlədə, həm də mətndə məxsusi vəzifə və funksiya daşıyır. Sual əvəzlikləri mətn komponentlərinin təşkilində iştirak edərkən bəzən əsl sual mənasında çıxış edir. Bu zaman izahedici cümlələr bir-birinin ardınca gələrək həmin sualı izah edir. Bu isə mətnin bütövləşməsinə səbəb olur. Nümunə:

-Hanı o?
-Xəstəxanadadır.
-Bəs onun briqadasından burda kimlər işləyirdi?
-Tükəzban arvadla Kərim kişi.
-Bəs onlar hanı?
-Arvad xəstəxanadadır. Kişi burdadır.

Prokuror yaxşı tanıdığı Kərim kişini camaatın içində gözləri ilə xeyli axtardı: - Bəs hanı? Gözümə dəymir, yoxsa, qaçıb?

- Burdayam, heç yerə qaçmamışam.

Əsədov qocanı hirsli-hirsli süzüb dişini qıcadı.

- Kişi, pambığı niyə yandırıbsan?
- Mən pambıq yandırmamışam... (8, s. 229).

Sual əvəzliklərinin bir qismi isə sual bildirmir. Sual mənasını qismən itirmiş olan belə sözlər tərəddüd, inamsızlıq, şübhə və s. mənaları ifadə edir. Öz əvvəlki mənasını dəyişmiş sual əvəzliyi söylənilən fikrə subyektin şəxsi münasibətini də ifadə edir.

1. Kim bilir, dünyanın neçədir yaşı?
Tarixin nə qədər yazısı vardır.
Hər saxsı parçası, hər məzar daşı
Nəsildən nəsilə bir yadigardır (10);
2. Mənim bu dərdimi axı kim anlar,
Ah! Qədim əyyamlar, köhnə zamanlar,
Hanı qiymət qoyan şeirə, sənətə?
Zaman dara düşüb, insan möhnətə (9, s. 45).

Göründüyü kimi mətnin belə cümlələrində danışan şəxs məsələyə müəyyən qədər şübhə, tərəddüd, inamsızlıqla yanaşır.

Bəzi hallarda mətndə sual əvəzliyinin funksiyası daha böyük ola bilir. Belə hallar ola bilir ki, bir sual əvəzliyinin izahına, konkretləşməsinə bir cümlə, sintaktik bütöv və ya əsər bütünlüklə bir əsərə xidmət edir. Məs.: "Murad sanki söhbətə müdaxilə edir, Mehmanın evində yaranan vəziyyətdən, mamayevlərlə olan qohumluğundan narahat olduğunu bildirirdi: - "Oğlum, adımızı təmiz saxla, bizi qara ləkədən gözlə!" Burada, bu ucqar dağın döşündə, bu söhbət zamanı, belə, atasının xəyalı da belə onu həmin məşum "ləkə"ni xatırladır, oğlunu xəbərdar edir. Bəs nə olan, necə olan şeydir?... Niyə Mehman bu eybəcər "ləkə" xəbərdarlığını dönə-dönə eşitsin?" (7, s. 74).

Bu suallardan sonra sanki bütün əsər sualların cavabını aydınlaşdırmağa xidmət edir. Mövcud suallardan aydın olur ki, Mehmanın başına nəsə gələcək. Əsəri oxuduqca orada qeyd edilmiş "ləkə" sözünün mahiyyəti də açılır, bununla oxucu sualların cavabını bilmiş olur.

Nəticə. Beləliklə, aparılan təhlillərdən belə qənaətə gəlmək olur ki, əvəzliklər mətnin (xüsusilə də bədii mətnin) qurulmasında, onu daha da maraqlı olmasında, abzasların bağlanma və əlaqələnməsində mühüm mühüm əhəmiyyət kəsb edir.

İstifadə edilmiş ədəbiyyat

1. Kazımov Q. Müasir Azərbaycan dili, Bakı: Ünsiyyət, 2000, 494 s.
2. Seyidov Y. Azərbaycan dilinin qrammatikası. Morfologiya (dördüncü nəşr). Monoqrafik dərs vəsaiti. Bakı: Bakı Universiteti, 2011, 368 s.
3. Şahbazova Z. Azərbaycan dilində əvəzliklər: fil.el.dok.dis. Bakı: 2008, 243 s.
4. Elçin. Seçilmiş əsərləri. 10 cilddə, II c. Bakı: Çınar-Çap, 2005, 523 s.
5. Hüseyn C. Əsərləri. Beş cilddə. I c. Bakı: Lider, 2005, 256 s.
6. Mir Cəlal. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, 384 s.
7. Rəhimov S. Seçilmiş əsərləri. İki cilddə. II c. Bakı: Şərq-Qərb, 2005, 312 s.
8. Şıxlı İ. Seçilmiş əsərləri. 2 cilddə. I c. Bakı: Şərq-Qərb, 2005, 408 s.
9. Vahabzadə B. Seçilmiş əsərləri. 2 cilddə. II c. Bakı: Öndər, 2004, 320 s
10. http://e-derslik.edu.az/books/271/units/unit-1/page111.xhtml

Açar sözlər: əvəzlik, mətn, abzas, əlaqələndirici vasitə
Ключевые слова: местоимение, текст, абзац, средство связи
Key words: pronoun, text, paragraph, coordinating means

Xülasə

Məqalə Azərbaycan dilində ayrıca əsas nitq hissəsi olan əvəzliklərin mətnyaratmadakı roluna həsr edilib. Burada əvvəlcə əvəzliyin bir nitq hissəsi olaraq xüsusiyyətindən, dilçilikdə onunla bağlı fikir ayrılıqlarından və

qədimliyindən məlumat verilir. Daha sonra isə əvəzliyin məna növlərinin ayrı-ayrılıqda mətnin qurulmasındakı vəzifə və funksiyaları göstərilir. Təqdim edilən mövcud elmi fikirlər bədii ədəbiyyat nümunələrindən konkret mətn parçaları verilməklə əsaslandırılır. Əvəzliklərin mətnin qurulmasında semantik-qrammatik baxımdan yaratdığı xarakterik xüsusiyyətlər diqqətə çatdırılır.

Роль местоимения в создании текста

Резюме

Статья посвящена роли местоимений в текстообразовании, которые являются отдельной основной частью речи в азербайджанском языке. Здесь впервые приводятся сведения о свойстве местоимения как части речи, о разногласиях по поводу него в лингвистике и его древности. Далее указываются задачи и функции типов значений местоимения в построении текста по отдельности. Представленные современные научные идеи обосновываются предоставлением конкретных фрагментов текста из образцов художественной литературы. Обращает на себя внимание характерные особенности, которые местоимения создают в семантико-грамматическом плане при построении текста.

The role of pronouns in creating text

Summary

The article is devoted to the role of pronouns, which are a separate main part of speech in the Azerbaijani language, in text creation. First, information is provided about the nature of the pronoun as a part of speech, the differences of opinion about it in linguistics, and its antiquity. Then, the tasks and functions of the pronoun's meaning types in the construction of the text are shown separately. The presented existing scientific ideas are substantiated by giving specific text fragments from examples of fiction. The characteristic features created by pronouns in the construction of the text from a semantic-grammatical point of view are brought to attention.

RƏYÇİ: dos. S.Abbasova